## 17.02.2022: xəbər

**Department Head Rovshan Abbasov, is a Visiting Professor at Florida State University**

As reported, Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, is currently a visiting professor at Florida State University. During this visit, Rovshan Abbasov is holding numerous meetings.

On February 15, Rovshan Abbasov met with James Hunt and Andrew Brady, Director of the FSU Institutional Research Center. The main directions of FSU development, statistics of students and research work were discussed at this meeting.

On the same day, Rovshan Abbasov met with Brent Edington, Director of the Research Commercialization Center. Mr.Edington gave detailed information on the commercialization of FSU research findings and the establishing of start-ups.

On February 16, the first meeting took place with Kerry Peluso, FSU Vice President of Research, and Pamela Ray, Leader of the Sponsored Research Group. Pamela Ray spoke about the main grants, awards and their sources received by FSU, research project proposals and their management, and the role of project teams in the development of the received grants.

Then Rovshan Abbasov participated in a seminar on "How to find financial resources for research" organized by Carolyn Bradley, Director of the Research Development Center. In this system, each university employee creates his own profile and accesses an information network called "My financial sources". This information network provides each profile owner with relevant information.

**Departament müdiri Rövşən Abbasov Florida Dövlət Universitetində qonaq professor fəaliyyətini davam etdirir**

Xəbər verdiyimiz kimi, Xəzər Univeristetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov hal-hazırda Florida Dövlət Universitetində qonaq professordur. Bu səfəri çərçivəsində Rövşən Abbasov çoxsaylı görüşlər keçirməkdədir.

Fevralın 15-də Rövşən Abbasov FSU İnstitutsional Tədqiqat Mərkəzinin Direktoru James Hunt və Andrew Brady ilə görüşmüşdür. Bu görüşdə FSU-nun əsas inkişaf istiqamətləri, tələbələr və tədqiqat işlərinin statistik məlumatları müzakirə olunmuşdur.

Elə həmin gün Rövşən Abbasov Tədqiqatların Kommersiyalaşdırılması Mərkəzinin direktoru Brent Edington ilə görüşmüşdür. Cənab Edington FSU-da alınan tədqiqat nəticələrinin kommersiyalaşdırılması və start-upların yaradılması barədə geniş məlumat vermişdir.

Fevralın 16-da ilk görüş FSU-nun Tədqiqat üzrə vitse-prezidenti Kerry Peluso və Sponsorlaşdırılmış Tədqiqat Qrupunun lideri Pamela Ray ilə baş tutmuşdur. Kerry Peluso FSU-

nun aldığı əsas qrantlar, mükafatlar və onların mənbələri, yazılan layihə təklifləri və onların idarə olunması barədə məlumat vermis, alınan qrantlların işlənilməsində layihə heyətlərinin rolundan danışmışdır. Pamela Ray isə tədqiqatların sponsorlaşdırılması və bu istiqamətdə qazanılan uğurlardan söz açmışdır.

Daha sonra Rövşən Abbasov Tədqiqatın İnkişaf Mərkəzinin direktoru Carolyn Bradley tərəfindən təşkil olunan "Tədqiqat üçün maliyyə resurslarını necə tapmalı" adlı seminarda iştirak etmişdir. Carolyn Bradley bu vebinarda əsas qrant imkanları barədə universitet işçilərinin məlumatlandırılması üçün yaradılan "Pivot" sistemi barədə geniş məlumat vermişdir. Bu sistemdə hər bir universitet əməkdaşı öz profilini yaradır və "Mənim maliyyə mənbələrim" adlı informaisya şəbəkəsinə daxil olur. Bu informasiya şəbəkəsi hər bir profil sahibini uyğun məlumatlarla təmin edir.


OFFICE OF INSTITUTIONAL RESEARCH


Frederick L. Jenks


Office of
312
$1,700